# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Distant təhsil: sinif otağından ekrana uzanan tənhalıq**



8

№ 004 (7414)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

16 yanvar 2026-cı il.
Qiyməti 1 manat

# Dirçələn və inkişaf edən QARABAĞ!




2

*Prezident İlham Əliyev: "Ağdərənin gələcək inkişafı çox parlaq olacaq"*

# Xameneyi, Tramp və tacsız Pəhləvi

İranda etirazçıların vəziyyəti necədir?



3

**Qışda ən çox səssiz inkişaf edən xəstəliklər hansılardır?**



5

**Bunun üçün uzağa getməyin!**



6

**Susuzluq: biz qədrini bilmirik, onlar dadını**



7

## Pensiya yaşı dəyişdirilir?



8

## Tramp dünya ağası olmaq istəyir - İrandan sonrakı hədəfi kimdir?



4






# Dirçələn və inkişaf edən QARABAĞ!

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsindəki tarixi qələbədən dərhal sonra Ermənistan tərəfindən vandallığa məruz qalan ərzilərimizdə bərpa və yenidənqurma işləri başladı. Dağıdılmış kəndlərin və şəhərlərin yerində qısa müddətdə "ağıllı kənd"lərin təməli qoyuldu.***

*Prezident İlham Əliyev: "Ağdərənin gələcək inkişafı çox parlaq olacaq"*



Əzəli sakinlərimiz doğma torpaqlarına qayıdırlar və Böyük Qayıdış davam etməkdədir. Zəfər qazanmağımızdan 5 ildən artıq bir müddət keçsə də görülən işlərin miqyası genişdir. Sürətlə aparılan işlər və Azərbaycan Prezidenti İlham Əliyevin bu ərazilərə mütəmadi olaraq səfər etməsi, eləcə də imzaladığı sərəncamlar, verdiyi tapşırıq və qərarlar Qarabağ və Şərqi Zəngəzurun sürətlə və keyfiyyətli yenidən qurulmasında özünü göstərir.

## "Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb"

"Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb". Bu sözləri Prezident İlham Əliyev Ağdərənin Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşdə bildirib. Dövlətimizin başçısı qeyd edib: "Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində".

Xatırladaq ki, Azərbaycan Ordusu antiterror tədbirlərinin qarşısını alaraq tariximizə uğurlar həkk etdi. Cəmi 23 saat 43 dəqiqə ərzində keçirilən əməliyyatın əsas məqsədi Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin zərərsizləşdirilməsi, onların hərbi obyektlərinin məhv edilməsi və Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması idi. Əməliyyat zamanı Azərbaycan Ordusu müasir hərbi texnika və yüksək dəqiqliklik vasitələrdən istifadə edərək strateji mövqelərdə yerləşdirilmiş qanunsuz erməni silahlı qüvvələrini sıradan çıxardı. Beləliklə, Ağdərə, Xoçavənd, Xocalı və Xankəndidən separatçıların qovulması ilə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu.

## "Ağdərə şəhərini də biz yenidən quracağıq, necə ki, artıq doqquz kəndi abadlaşdırmışıq"

Məlumdur ki, ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək və s. məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. "Ağdərə şəhərini də biz yenidən quracağıq, necə ki, artıq doqquz kəndi abadlaşdırmışıq. Şəhəri də quracağıq", - deyə Prezident söyləyib. Buranın çox gözəl sənaye və turizm mərkəzi olacağını vurğulayan Prezident qeyd edib: "Bu səfalı yerlər göz oxşayır. Hər tərəf dağ, meşə, gözəl hava, bulaqlar, çaylar. Ona görə Ağdərənin gələcək inkişafı çox parlaq olacaq".

## 2030-cu ilədək şəhərdə 3590 nəfər məskunlaşacaq

Baş plana əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub. Bu mərkəzin yaradılmasında məqsəd xüsusi təyinatlı bölmələrin müxtəlif ərazi, relyef və hava şəraitində hazırlıqlarının təmin edilməsi, həmçinin beynəlxalq hərbi əməkdaşlıq sazişləri əsasında tədbirlərin, o cümlədən təlimlərin, kursların keçirilməsidir. Mərkəzin geniş ərazisində çoxsaylı şəxsi heyətin iştirakı ilə təlim və məşqlərin keçirilməsi mümkün olacaq. Burada təlim sahələri, o cümlədən atıcı və iriçaplı silahların atış, pilotsuz uçuş aparatlarının, o cümlədən zərbə dronlarının, müxtəlif simulyasiya, xüsusi əməliyyatların, sürücülük, üzgüçülük hazırlıqlarının məşq sahələri yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdərə rayonunun Çıldıran kəndində görülmüş işlərlə tanış olub. Çıldıran Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini heyvandarlıq və bitkiçilik təşkil edib. Kənddə məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Kəndin ərazisi tarixi abidələrlə zəngindir. Burada XII əsrə aid "Alban məbədi" və XIII əsrə aid "Qırmızı məbəd" memarlıq abidələri yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub. Kənddə 177 fərdi ev mövcuddur ki, onlardan da 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib. Bu il daha 30 evin bərpası planlaşdırılır. Hazırda ilkin olaraq kəndə 13 ailə (48 nəfər) qayıdıb.

## Ölkədə ilk dəfə olaraq müasir enerji istehsalında istifadə edilən qurğular

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində "Qozlukörpü" Su Elektrik Stansiyasının (SES) açılışında iştirak edib. Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun yaşıl enerji zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq Ağdərə rayonunda, regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş "Qozlukörpü" Su Elektrik Stansiyası 14,7 meqavat gücündədir. Sərt relyef, iqlim şəraiti və çətin logistika səbəbindən tikinti prosesi digər bölgələrlə müqayisədə daha çox vaxt tələb etməsinə baxmayaraq, layihə qısa müddətdə uğurla icra olunub. Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb. Bütün texniki və ekoloji amillər nəzərə alınmaqla inşa edilən bu qurğudan stansiyaya suyun ötürülməsi üçün çətin dağlıq ərazidə 13 kilometr uzunluğunda derivasiya borusu çəkilib. Burada ölkədə ilk dəfə olaraq müasir enerji istehsalında istifadə edilən qurğular quraşdırılıb. Onlar azsulu dövrlərdə 25 faiz, bolsulu dövrlərdə isə 100 faiz məhsuldarlıqla fasiləsiz işləyə bilir. Stansiyanın ölkə enerjisisteminə qoşulması üçün açıq paylayıcı qurğu yaradılıb, həmçinin optik kabel xətti çəkilərək stansiya rəqəmsal idarəetmə sisteminə inteqrasiya olunub.

Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan Azərbaycan Vətən müharibəsindən ötən müddətdə azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. İşğaldan azad olunan ərazilərimiz kimi, Ağdərə də yeni dövrünü - abadlıq-quruculuq dövrünü yaşayır.

***Zümrüd BAYRAMOVA***

# Xameneyi, Tramp və tacsız Pəhləvi

## İranda etirazçıların vəziyyəti necədir?

***İranda son üç ildə ən böyük kütləvi hökumət əleyhinə etirazlar davam edir. Onlar artıq İslam Respublikasının 47 illik tarixində görünməmiş bir səviyyəyə çatıblar. Prezident Donald Trampın təmsil etdiyi ABŞ etirazları yaxından izləyir və dəfələrlə müdaxilə ilə hədələyib. Bundan əlavə, İranın regional güc kimi mövqeyi İsraillə müharibə və ötən ilin iyun ayında ABŞ-ın bombardmanı ilə sarsıdılıb.***



Donald Tramp bazar günü 86 yaşlı Ayətullah Əli Xameneinin rəhbərlik etdiyi İran rəhbərliyinin ona danışıqlar təklifi ilə zəng etdiyini açıqlayıb. Son bir həftə ərzində Tramp dəfələrlə İran hökumətini ABŞ-ın müdaxiləsi ilə hədələyib.

Xarici İşlər Naziri Abbas Əraqçi Tehranda dövlət televiziyasında yayımlanan xarici səfirlərin konfransında bildirib ki, "İran İslam Respublikası müharibə axtarmır, amma müharibəyə tam hazırdır. Biz də danışıqlara hazırıq, lakin bu danışıqlar ədalətli, bərabər və qarşılıqlı hörmətə əsaslanmalıdır". Xarici İşlər Nazirliyinin sözçüsü Esmail Baqaei bildirib ki, Əraqçi ilə Trampın Yaxın Şərq üzrə xüsusi elçisi Stiv Vitkoff arasında ünsiyyət kanalı açılıb. ABŞ-ın İranla diplomatik münasibətləri yoxdur; ABŞ-ın Tehrandakı maraqlarını İsveçrə səfirliyi təmsil edir.

İranda internet cümə axşamı axşamından bəri tamamilə bağlanıb. Hazırda İranda internetə qoşulmağın yeganə mümkün yolu Starlink peyk terminallarıdır. İranlılar etirazların video və fotolarını internetdə yerləşdirmək üçün onlardan istifadə edirlər. Xarici media orqanlarının İranda fəaliyyət göstərməsi ya tamamilə qadağan edilib, ya da icazə verilib, lakin ölkə daxilində səyahətə ciddi məhdudiyyətlər qoyulub. Norveçdə yerləşən İran insan haqları təşkilatı olan İran İnsan Haqları (IHR) bazar ertəsi günü toqquşmalarda ən azı 648 nəfərin öldüyünü açıqlayıb. IHR faktiki ölüm sayının daha çox - 6000-ə qədər - ola biləcəyini təxmin edir, lakin internetin bağlanması ölüm xəbərlərinin çoxunu yoxlamağı qeyri-mümkün edir. 28 dekabrda başlayan və əvvəlcə iqtisadi problemlərlə başlayan etirazlar İranın İslam hakimiyyəti üçün ən ciddi təhdidlərdən birinə çevrilib. Təhlükəsizlik qüvvələri etirazları qəddarcasına yatırır. Müxalifətçilər deyirlər ki, hakimiyyət orqanları basqınların miqyasını gizlətmək üçün qismən interneti bağlayıb.

### Yeni lidermi?

İlk dəfə olaraq İranda bir qrup etirazçının aydın bir lideri var: 1979-cu ildə devrilmiş şahın oğlu Rza Pəhləvi. O, ABŞ-da mühacirətdə olarkən özünü "şah" elan edib. Onun fəallığı bəzi etirazların niyə davam etdiyini qismən izah edir. Bu etirazla əsas fərq ondadır ki, bu cür sistemsiz etirazın lideri ya yoxdur, ya da simvolik olan bu lider ABŞ-da yaşayır. O, əlbəttə ki, yerlərdə hərəkətləri düzgün şəkildə əlaqələndirə bilmir. Amma buna baxmayaraq, o, mövcuddur. Və o, əhalini siyasi fəaliyyətə səfərbər etməyi bacarıb. Bu, əvvəllər heç vaxt baş verməyib. Pəhləvi fəal şəkildə iranlıları küçələrə çıxmağa çağırıb və tərəfdarları onun çağırışlarını fəal şəkildə paylaşırlar. Xüsusən gənc iranlılar dolayı yolla bir-birini sosial mediada nümayişlərdə iştirak etməyə təşviq edirlər. Nümayişçilər onun adını qışqırırlar və Pəhləvi sülaləsinin qayıtması üçün çağırışlar edilir.

Tehran kimi şəhərlərdə bəzi dairələr son etirazların miqyasını Pəhləvinin çağırışlarının effektivliyinin sübutu kimi qəbul edir. Analitiklər qeyd edirlər ki, tanınmış müxalifət xadiminin iştirakı bəzi etirazçılar arasında mövcud hökumətin süqutu halında potensial alternativin olduğu hissini gücləndirib. Lakin digər ekspertlər hesab edirlər ki, Pəhləviyə dəstək ifadələri mütləq iranlıların monarxiyanın bərpa olunmasını istədikləri anlamına gəlmir. Əksinə, onlar, xüsusən də ölkədə tanınmış dünyəvi müxalifət liderlərinin olmaması nəzərə alınmaqla, dini idarəçiliyə alternativə olan ümidsiz ehtiyaclarını ifadə edirlər.

### Etirazlar uğur qazanacaqmı?

ABŞ-ın Yaxın Şərqdəki keçmiş səfiri və prezident Co Bayden dövründə Yaxın Şərq üzrə keçmiş xüsusi nümayəndəsi Devid Satterfild qeyd edir ki, onun qiymətləndirməsində İran hakimiyyəti artıq əhalinin əsas ehtiyaclarını ödəyə bilmir. Buraya yalnız yuxarı və orta təbəqələr üçün deyil, həm də əhalinin ən yoxsul təbəqələri üçün münasib qiymətlərlə su, yanacaq, elektrik enerjisi və qida daxildir. Satterfild deyib: "Rejimin etirazların səbəblərini həll etmək üçün resursları yoxdur. 2022-ci il etirazları kimi mədəni tədbirlərə gəldikdə, rejim qadınlara qoyulan məhdudiyyətləri yumşalda, geyim qaydalarını yumşalda və əxlaq polisi insanların saçlarını örtməsini tələb etməyi dayandıra bilər və həqiqətən də edib. Lakin insanlar yaşayış minimumu, dəyərdən düşməyən valyuta, yanacaq, elektrik enerjisi və su tələb etdikdə, rejim bunu eyni rahatlıqla təmin edə bilməz".

### Dialoq, yoxsa müharibə

RAKURS

ABŞ prezidenti Donald Tramp İranla danışıqların bərpasına icazə verib, lakin bu, yalnız ABŞ İslam Respublikasına qarşı hərbi hücumlar başlatdıqdan sonra baş verib. Ağ Ev hesab edir ki, Tehran 28 dekabrda başlayan hökumət əleyhinə nümayişləri yatırmaqla və öldürməklə "qırmızı xətti" keçməyə başlayıb. 12 yanvar bazar ertəsi günü İranın xarici işlər naziri Abbas Əraqçi xaricdəki diplomatik nümayəndəliklərin rəhbərləri ilə görüş keçirib və görüş zamanı ölkədəki vəziyyətin tam nəzarət altında olduğuna əminlik verib və hakimiyyətin xaricdən gələn "hər hansı bir təcavüzə qarşı durmağa" hazır olduğunu vurğulayıb.

İran rəhbərliyi özü də müzakirə olunan məsələlər üzrə dialoqa başlamağı təklif edib. Tramp bunu Air Force One-da jurnalistlərə danışarkən bildirib. "Biz onlarla görüşə bilərik", - deyə o bildirib. "Görüş təşkil olunacaq. Amma baş verənlərə görə görüşdən əvvəl hərəkətə keçməli ola bilərik. Amma görüş keçiriləcək". Amerika lideri İrandakı hadisələrə bağlı saatlıq hesabatlar aldığını və vəziyyətin Tehranın küçə etirazlarını yatırmaqda "qırmızı xətti" keçdiyi kimi görünməyə başladığını bildirib. "Görünür, öldürülməməli olan insanlar öldürülüb", - deyə o bildirib. "İran hakimiyyəti zorakılığa meyllidirlər... Onlar zorakılıqla idarə edirlər".

13 yanvar tarixində Trampın İran müxalifətini dəstəkləmək və mərkəzi hökuməti zəifləmək yollarını müzakirə etmək üçün milli təhlükəsizlik komandası ilə daha bir görüş keçirməsi planlaşdırılır. Ən radikal variantlar, o cümlədən İran təhlükəsizlik qüvvələrinə qarşı zərbələr araşdırılır. "Biz buna çox ciddi yanaşırıq", - deyə Tramp bildirib. "Ordu buna baxır. Biz çox ciddi variantları müzakirə edirik". Bundan əlavə, ABŞ prezidenti keçmiş müttəfiqi milyarder İlon Maskla danışacağına və ondan iranlı etirazçılara Starlink peyk sistemi vasitəsilə sabit internet çıxışı təmin etməyə kömək etməsini xahiş edəcəyinə söz verib. Bu şəbəkənin peykləri İslam Respublikasının ərazisini əhatə etsə də, İran hakimiyyəti müxalifət jurnalı olan "Iran Wire"-ə görə, hərbi manevrlərdən istifadə edərək fəal şəkildə müdaxilə edir.

İran diplomatik korpusu öz növbəsində Vaşinqton və Tehran arasında dialoqun hələ də mövcud olduğunu inkar etməyib. Məsələn, İslam Respublikası Xarici İşlər Nazirliyinin rəsmi sözçüsü Esmail Bəqayi brifinqdə bildirib ki, Amerika tərəfi İran Xarici İşlər Naziri ilə xüsusi kanal vasitəsilə əlaqə saxlayır. "Və lazım olduqda, lazımi mesajlar onun vasitəsilə ötürülür", - deyə o qeyd edib. Bəqayi qeyd edib ki, ABŞ-ın İranda diplomatik nümayəndəliyi yoxdur, lakin İsveçrə səfirliyi amerikalılarla söhbətlərdə vasitəçi rolunu oynayır. Lakin Tehran Trampın İslam Respublikasının özünün daimi təhdidlər qarşısında diplomatiya təklif etməsi barədə açıqlamasına münasibət bildirməkdən imtina edib.

Əraqçi özü yanvarın 12-də Tehranda xarici diplomatik nümayəndəliklərin rəhbərləri ilə görüş keçirərək ölkə hakimiyyətinin vəziyyətə "tam nəzarət etdiyini" izah edib. İran diplomatiyasının rəhbəri bildirib ki, "İran müharibə istəmir, lakin istənilən təcavüzə qarşı durmağa hazırdır. Və bu hazırlıq əvvəlkindən daha böyükdür". O, xüsusilə "son günlərdə baş verən terror hücumlarında həm ABŞ-ın, həm də İsrailin iştirakını təsdiqləyən çox sayda sənədə" işarə edib. "Qərb ölkələri terrorçuları qınamaq əvəzinə, polisimizi qınayırlar. Onlar Qəzza zolağında 70 mindən çox insanın soyqırımını və ABŞ və İsrailin əlində 1000-dən çox İran vətəndaşının ölümünü qınaya bilmədilər, amma bu gün İrandakı terrorçuları dəstəkləyirlər", - deyə Əraqçi bildirib.

İran hakimiyyəti etiraz fəaliyyətinin azaldığını vurğulayır. Məsələn, Tehran valisi Məhəmməd Sadiq Motamediyan 11 yanvar bazar günü axşamı "etiraz qruplarının sayının da əhəmiyyətli dərəcədə azaldığını və artıq narahatlığa heç bir səbəb olmadığını" bildirib. Lakin faktlar bunun əksini göstərir. Xorasan Rəzəvi əyalətinin hüquq-mühafizə qüvvələrinin komandanlığı küçə toqquşmaları nəticəsində ilk dəfə yüksək vəzifəli İran generalının öldürüldüyünü bildirib. O, Məşhəddəki narkotiklərlə mübarizə şöbəsinin rəisi general Cavad Keşavərzdir. Rəsmi versiyaya görə, qətl "şəhərdə silahlı terrorçuların hücumu nəticəsində" baş verib.

İran rəhbərliyinin fikrincə, zorakılıqdan fəal şəkildə istifadə edən qarşı tərəfdir. Əraqçi səfirlərlə görüşdə elan etdi ki, "8 yanvardan etibarən yeni bir mərhələ ilə qarşılaşdıq və 8-10 yanvar tarixlərində nümayişçilər arasında terrorçular və silahlar peyda oldu. Bu, açıq şəkildə planlaşdırılmışdı. Etirazlar məqsədindən yayındı və ölkə daxilində ümumi zorakılığa, qan tökülməsinə və qırğınlara çevrildi. Etirazçılar arasında silahlı elementlər peyda oldu və onlar təkcə polis əməkdaşlarına deyil, həm də ən əsası adi insanlara atəş açdılar." O, yerli təhlükəsizlik qüvvələrinin zorakılığa görə məsul olanları axtarıb məsuliyyətə cəlb edəcəyinə söz verdi.

Lakin İran müxalifəti və ona rəğbət bəsləyən ölkələr zorakılığın mənbəyinin hüquq-mühafizə orqanlarının olduğunu iddia edirlər. 12 yanvarda Brüsseldə keçirilən brifinqdə Avropa Komissiyasının (AK) nümayəndələri Tehrana qarşı məhdudlaşdırıcı tədbirlər tətbiq edə biləcəklərini irəli sürdülər. "AB İrana qarşı yeni, daha sərt sanksiyalar tətbiq etməyə hazırdır", - AK sözçüsü Paula Pinho bildirib. İranın ən nüfuzlu hərbi-siyasi təşkilatı olan İslam İnqilabı Keşikçiləri Korpusuna (İİKK) qarşı sanksiyaların tətbiq edilməsi ehtimalı ilə bağlı suala cavab olaraq, AK sözçüsü Ənvər əl-Anuni öz növbəsində bildirib ki, bu məsələ ilə bağlı "Aİ ölkələri arasında məxfi müzakirələr aparılır" və bu barədə hazırda şərh vermək mümkün deyil.

Lakin İrana qarşı hərbi və iqtisadi təzyiq çox əks nəticə verə bilər. Təl-Əviv Universitetinin Milli Təhlükəsizlik Tədqiqatları İnstitutunun (İTTİ) eksperti Dani Sitrinoviç "İsrael Hayom"la söhbətində izah edib ki, mümkün ssenarilərdən biri artan repressiyaların İİKK daxilində müəyyən dairələri hakimiyyəti zorla ələ keçirməyə və ölkəni hərbi xunta kimi idarə etməyə sövq etməsidir - hətta mülki hökumət yerində qalsa belə. Tədqiqatçı vurğulayır ki, "real müxalifətin olmaması o deməkdir ki, vəziyyətin pisləşməsi İranın azadlığı ilə deyil, daha mühafizəkar qüvvələrin əlinə keçməsi ilə başa çata bilər".

Citrinoviç iddia edir ki, "Amerika və ya İsrail hücumu vəziyyəti sarsıda biləcək bir hadisədir, lakin onun nəticələrini proqnozlaşdırmaq çətindir. Bir tərəfdən, vəziyyət rejimin çarəsizliyini bir daha üzə çıxararsa və xarici dəstəkli etirazçılara ümid bəxş edərsə, bu, itkin düşmüş "kritik kütlənin" ortaya çıxmasına səbəb ola bilər. Digər tərəfdən, tədqiqatçı izah edir ki, İranın ali rəhbərliyi mövcud hadisələrdən cəmiyyətin ən sadiq hissəsini xarici düşmənə qarşı səfərbər etmək üçün istifadə edə bilər ki, bu da "əslində etirazları zəiflədəcək".

**V.VƏLİYEV**

***P.S.** Xarici mənbələrə istinadlar var*

# Valideyn himayəsindən çıxa bilməyən 30 yaşlılar: problemin səbəbi kimdədir?

***Müasir cəmiyyətdə yetkin yaşa çatmış, amma hələ də valideyn himayəsindən tam müstəqil olmayan insanlar getdikcə daha çox diqqət çəkir. 30 yaşını keçmiş bir şəxsin hələ də valideynləri ilə birgə yaşaması və həyat qərarlarını onlardan asılı etməsi, həm fərdi, həm də sosial səviyyədə problemlər yaradır. Bu fenomen yalnız fərdlə bağlı bir məsələ deyil, onun kökləri ailə münasibətləri, sosial şərtlər, iqtisadi imkanlar və psixoloji faktorlarla sıx bağlıdır. SİA mövzu ilə bağlı araşdırma edib.***




### Psixoloji səbəblər

Asılılıq vərdişləri: Bəzi insanlar uşaqlıqda valideynlərinin hər şeyi həll etməsi nəticəsində qərarvermə bacarıqlarını inkişaf etdirə bilmir.

Özünə inamsızlıq: Öz seçimlərinə inamı olmayan fərdlər, riski qəbul etmədən valideynlərə üz tutur.

Perfeksionizm və qorxu: Uğursuzluq qorxusu və mükəmməl nəticə istəyi şəxsi məsuliyyətdən qaçmağa səbəb olur.

### Ailə və tərbiyə faktorları

Hiper-qoruyucu valideynlik: Valideynlərin çox müdaxilə etməsi və övladlarını qoruma istəyi onları müstəqil qərarlar verməkdən saxlayır.

Maddi asılılıq: Əgər valideynlər maliyyə baxımından dəstəkləyirsə, övlad üçün asılılıq daha uzun müddət davam edir.

Əlaqələrdə "rol dəyişməsi": Bəzən valideynlər və uşaqlar arasında ailə dinamikası uşaq rolunu davam etdirir, yetkinlik rolunu isə qəbul etmirlər.

### Sosial və iqtisadi faktorlar

Mənzil problemi və işsizlik: Böyük şəhərlərdə kirayə qiymətləri və sabit iş imkanlarının azlığı gəncləri valideynlərlə birlikdə yaşamağa məcbur edir.

Mədəni təsirlər: Bəzi cəmiyyətlərdə ailə içi bağlılıq çox güclüdür və yetkin yaşda da valideynlərlə yaşamaq normativ hesab olunur.

### Problemin kimdə olduğu

Bu məsələdə konkret bir tərəfi günahlandırmaq düzgün deyil. Problem qarışıqdır və həm fərddə, həm ailədə, həm də sosial mühitdə yaranır:

-Fərd öz məsuliyyətini üzərinə götürmür və müstəqil qərar vermək bacarığını inkişaf etdirməyib.

-Valideynlər uşaqlarını yetkin olaraq qəbul etməyib və onların həyatına çox müdaxilə edirlər.

-Sosial və iqtisadi şərait fərdləri asılı vəziyyətə salır.

### Həll yolları

-Psixoloji dəstək: Yetkin yaşda övladlar üçün terapiya və fərdi məşğələlər qərarvermə bacarıqlarını artırır.

-Valideynlərlə sərhəd qoyma: Ailədəki münasibətlərdə sağlam sərhədlərin müəyyənləşdirilməsi övladın yetkinliyi üçün əhəmiyyətlidir.

-Sosial dəstək: Dövlət və qeyri-hökumət təşkilatları vasitəsilə mənzil və iş imkanlarının artırılması müstəqil yaşamağa təkan verir.

Azərbaycan və dünyada valideyn himayəsindən çıxa bilməyən yetkinlər:

### Müqayisəli baxış

Azərbaycanda vəziyyət

Demoqrafik və sosial faktorlar: Azərbaycan cəmiyyətində ailə bağlılığı çox güclüdür. Yetkin yaşda olan övladların valideynlərlə birgə yaşaması sosial norma kimi qəbul edilir.

Maliyyə və mənzil problemi: Xüsusilə gənclər üçün mənzil qiymətləri yüksəkdir və iş imkanları məhduddur. Bu da müstəqil yaşamağı çətinləşdirir.

Psixoloji faktorlar: Hiper-qoruyucu valideynlik geniş yayılıb. Valideynlər övladlarının hər qərarına qarışır, bu da məsuliyyət almaqdan çəkindirməyə səbəb olur.

Statistika: Son illərin araşdırmalarına görə, 25-35 yaşlıların təxminən 40-50%-i hələ də valideynləri ilə yaşayır və maliyyə baxımından onların dəstəyinə ehtiyac duyur.

### Dünyada vəziyyət

Avropa: İtaliya, İspaniya, Yunanıstan kimi cənub ölkələrində gənclər daha uzun müddət valideynlərlə qalır. Bu, mədəni və iqtisadi səbəblərlə bağlıdır. Şimal Avropa ölkələrində (Norveç, İsveç) isə gənclərin müstəqil yaşaması normadır və sosial dəstək sistemləri genişdir.

ABŞ və Kanada: Gənclər erkən yaşda müstəqil olur, amma tələbə borcları və mənzil qiymətləri 30 yaşa qədər valideyn dəstəyinə ehtiyac yarada bilir.

Asiya: Yaponiya, Cənubi Koreya kimi ölkələrdə "hikikomori" (sosial izolyasiya) fenomeni ilə yanaşı, gənclərin valideynlərlə yaşaması sosial və mədəni norma kimi qalır.

Psixoloji faktorlar: Dünyada da fərdlərin yetkin yaşda valideyn himayəsində qalması çox vaxt psixoloji asılılıq, riskdən qaçınma və qərarvermə bacarığının zəifliyi ilə bağlıdır.

### Müqayisəli analiz

Oxşarlıqlar: Həm Azərbaycanda, həm də bəzi dünya ölkələrində yetkin övladların valideynlərlə yaşaması sosial, iqtisadi və psixoloji faktorlarla bağlıdır.

Fərqlər: Qərb ölkələrində sosial dəstək və müstəqil yaşamağa təşviq daha güclüdür. Azərbaycanda isə ailə bağlılığı və iqtisadi çətinliklər daha çox rol oynayır.

Təklif olunan yanaşma: Hər iki kontekstdə fərdlərin psixoloji bacarıqlarının inkişafı, valideynlərin sərhəd qoyması və dövlət tərəfindən mənzil və iş imkanlarının artırılması vacibdir.

Valideyn himayəsindən çıxa bilməyən 30 yaşlı insanların problemi təkcə fərddə deyil, həm də ailədə və sosial mühitdə kök-lənmiş kompleks bir vəziyyətdir. Fərdlər müstəqil qərarvermə bacarıqlarını inkişaf etdirməli, valideynlər isə övladlarını yetkin fərd kimi qəbul etməli və onlara sərhədlər qoymalıdır. Eyni zamanda dövlət və cəmiyyət iqtisadi və sosial şəraiti yaxşılaşdıraraq gənclərin müstəqil yaşamasına dəstək olmalıdır. Yalnız bu üç tərəfli yanaşma vasitəsilə, 30 yaşını keçmiş insanların öz həyatını idarə edə bilməsi və valideyn himayəsindən çıxması mümkün olacaq.

***Ayşən Vəli***

# Tramp dünya ağası olmaq istəyir - İrandan sonrakı hədəfi kimdir?

***"Donald Trampın sürətlə dünyadakı prosesləri nəzarətə götürüb ən müxtəlif ölkələrdəki sərvətləri caynağına keçirməsi artıq adi hal alıb. Bu gün dünyada siyasətlə maraqlanmayan istənilən adam da əla anlayır ki, bu milyarder prezidenti dünyadakı əmin-amanlıq yox, öz şəxsi biznes maraqları, daha çox sərvət ələ keçirmək hərisliyi düşündürür.***

Təkcə Volodimir Zelenskiyə zor yolu ilə qol çəkdirib Ukraynanın təbii sərvətlərinə sahiblənməsini, Nikolas Maduranı arvadı ilə birlikdə yataqdan oğurlayıb səhərisi gün Venesuela neftini öz adından dünya bazarlarına satışa çıxarmasını xatırlatmaq kifayət edir ki, ABŞ tarixində bənzəri olmayan bu cür prezidentin dünya hegemonluğuna can atdığına şahid olasan. Digər ölkələrdə "sülh yaratmaq" əvəzində onların sərvətlərinə əl qoyan hazırkı Ağ Ev sahibinin niyyəti dünya üçün daha dağıdıcı olacaq."

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov deyib. O qeyd edib ki, D.Tramp ənənəvi ABŞ prezidenti obrazından çox uzaqdadır və daha çox hər şeyi qamarlamaq üçün alışıb yanan yırtıcı biznesmen libasındadır. "Bu adamı ənənəvi ABŞ prezidentlərindən fərqləndirən çox şey var. İlk əvvəl bu adamın üstündə dövlət libasından əsər-əlamət yoxdur. O yırtıcı biznesmen qiyafəsindədir və hər kəsi özünə tabe etdirən, dünya sərvətlərinə əl qoyan hegemoniya olmaq istəyir. D.Trampın dünya sərvətlərini ələ keçirmək siyasəti ABŞ-ın hegemoniyasınamı xidmət edir, yoxsa özünün şəxsi varlanması üçündür, bunu zaman göstərəcək. Görünən odur ki, ABŞ-ın illərdir bağırdığı demokratiya imicindən zərrəcə qədər əsər-əlamət də qalmayıb və hazırda bu dövlət açıq-aşkar yırtıcı imperiya görkəmindədir.



*Mətləb Salahov: "Bu adam başqa bir ölkənin prezidentini yorğan-döşəyindən oğurlamaqla olan-qalan beynəlxalq hüququ da zibil yeşiyinə tulladı"*

Bu adam başqa bir ölkənin prezidentini yorğan-döşəyindən oğurlayıb qaçırmaqla olan-qalan beynəlxalq hüququ da zibil yeşiyinə tulladı. Hazırda İranda Xomeyni rejimini keçmiş İran şahının qaçaq oğlu ilə əvəzləmək üçün çalışan D.Tramp Yaxın Şərqdə də bütün mövcud olanları silib yeni sistem yaratmaq üçün hərəkətə keçib. Əlbəttdə, bölgəmizdə baş verənlərin bizə də çox dəxli var. ABŞ rəhbərinin İranla bağlı planları bizə nə vəd edir, D.Trampın İsraillə birlikdə gələcək hədəfi hansı ölkələr olacaq, bölgənin yeni xəritəsi necə olacaq? Onu gələcək göstərəcək. Hələ ki, dünyada ağalıq edən görkəmində D.Trampdır. Amma bu istək reallıqdır, yoxsa mif? – onu da zamana buraxaq".

***Afət Tahirqızı***

# Qışda ən çox səssiz inkişaf edən xəstəliklər hansılardır?

ARAŞDIRMA

***Qış mövsümü insanların sağlamlığı üçün xüsusi risklər daşıyır. Soyuq hava, gün işığının azlığı, rütubət, virus və bakteriyaların daha uzun müddət aktiv qalması bir çox xəstəliklərin inkişafını sürətləndirir. Maraqlıdır ki, qışda bəzi xəstəliklər "səssiz" şəkildə inkişaf edir – yəni simptomlar gec və ya zəif ifadə olunur, buna görə də çox vaxt təsadüfən aşkarlanmaz. Bu xəstəliklər həm uşaqlar, həm də böyüklər üçün ciddi sağlamlıq riskləri yarada bilər. SİA mövzu ilə bağlı araşdırma edib. Elmi araşdırmalar göstərir ki, qışda müəyyən xəstəliklər daha çox müşahidə olunur, lakin onların əlamətləri qeyri-spesifik olduğundan erkən mərhələdə diaqnostika çətinləşir. Bu baxımdan, həm profilaktik tədbirlər, həm də düzgün tibbi nəzarət həyati əhəmiyyət kəsb edir.***



### Qışda səssiz inkişaf edən əsas xəstəliklər

**Respirator xəstəliklər və bronxopulmonar problemlər**

Soyuq havada bronxit, xroniki obstruktiv ağciyər xəstəliyi (KOAH) və astma xəstələrində vəziyyət tez pisləşir. Erkən mərhələdə yüngül öskürək, burun axması və yüngül tənəffüs çətinliyi müşahidə oluna bilər, lakin bu simptomlar ciddi respirator infeksiyalara çevrilə bilər.

### Qrip və soyuqdəymə ilə əlaqəli virus infeksiyaları

Qışda qrip virusları daha aktivdir. Səssiz başlanğıc xüsusiyyəti ilə diqqətdən yayınır: halsızlıq, yüngül hərarət, əzələ ağrıları erkən simptomlardır.

### Hipotoniya və qanın laxtalanma pozğunluqları

Soyuq hava qan dövranına təsir edir, bəzi insanlarda qan təzyiqi düşür və qan damarlarında laxtalanma riski artır. Səssiz inkişaf: baş ağrısı, yorğunluq, diqqət azlığı.

### Ürək-damar xəstəlikləri

Soyuq temperatur ürək-damar sisteminə əlavə yük qoyur. Hipertoniya və xroniki ürək xəstəlikləri olanlarda qışda infarkt və insult riski yüksəlir, lakin erkən simptomlar çox vaxt nəzərə alınmır.

### Psixoloji və nevroloji pozğunluqlar

Qış depressiyası (Seasonal Affective Disorder – SAD) və yuxu problemləri səssiz inkişaf edir. Simptomlar: ruh düşkünlüyü, yuxuya getmədə çətinlik, enerji azlığı.

### Profilaktik tədbirlər

-Havanın temperaturuna uyğun geyim, günəş işığından maksimum yararlanma.

-Qidalanmada vitamin və mineralların balansına diqqət: xüsusilə D və C vitaminləri.

-Xroniki xəstələr üçün müntəzəm tibbi nəzarət.

-Fiziki aktivliyin artırılması və psixoloji sağlamlığın qorunması.

-Təmiz hava və gigiyena qaydalarına riayət: xüsusilə respirator infeksiyaların yayılmasının qarşısının alınması.

Dünyada qışda səssiz inkişaf edə bilən xəstəliklər və sağlamlıq riskləri

Qeyri infeksion xroniki xəstəliklər (NCD) — "səssiz qatillər"

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qeyri infeksion xəstəlikləri (ürək damar xəstəlikləri, onkologiya, diabet, xroniki respirator xəstəliklər) "səssiz qatillər" adlandırır, çünki onlar uzun müddət simptom vermədən inkişaf edir və dünyada ölüm hallarının təxminən 75 %-ni təşkil edir. Risk faktorları isə qidalanma, fiziki aktivlik, siqaret və alkoqol kimi davranış amilləridir. Bu xəstəliklər qışda daha da ağırlaşa bilər — soyuq hava ürək damar yükünü artırır, qan dövranı sistemini gərginləşdirir və diabet kimi metabolik pozuntuların idarə olunmasını çətinləşdirir.

### Tənəffüs yolu infeksiyaları və soyuqla əlaqəli xəstəliklər

Qış aylarında respirator viruslar — qrip, RSV və digər soyuqdəymə agentləri daha aktiv olur. Onlar çox vaxt ilkin mərhələdə yüngül əlamətlərlə başlayır, buna görə də erkən diaqnostika çətinləşir və xəstəlik pnevmoniyaya kimi ağırlaşa bilər. Həmçinin soyuq hava bronxit və xroniki obstruktiv ağciyər xəstəliyi (KOAH) kimi xəstəlikləri daha da kəskinləşdirə bilər.

Ürək damar xəstəlikləri və qışın təsiri

Dünya üzrə ölüm səbəblərinin əsas hissəsini təşkil edən ürək damar xəstəlikləri qış aylarında daha da riskli olur — atmosfer temperaturunun düşməsi qan təzyiqinin artmasına səbəb olur, bu da infarkt və insult hallarını artırır.

### Nevrologiya və psixi sağlamlıq problemləri

Qlobal araşdırmalara görə dünya əhalisinin təxminən 43 %-i nevroloji problemlərdən əziyyət çəkir, bu da baş ağrıları, miqren və nevroloji pozuqluqların qlobal səviyyədə geniş yayılmış olduğunu göstərir. Qışda günəş işığının azalması və sosial izolasiya depressiya və Seasonal Affective Disorder (SAD) kimi psixi sağlamlıq problemlərini gücləndirə bilər.

### Qışda erkən simptomların gizlənməsi və diaqnostika çətinliyi

Bir çox xəstəlik — məsələn, ürək problemləri, diabet, pnevmoniya və hətta bəzi xroniki respirator xəstəliklər — ilk mərhələdə yüngül simptomlar verir və bu simptomlar soyuq havada adi soyuqdəymə ilə qarışa bilər. Bu səbəbdən insanlar vaxtında tibbi yardım axtarmaya bilər, bu da xəstəliyin sürətlə ağırlaşmasına gətirib çıxarır.

***Ayşən Vəli***

# Su mənbələri hər bir ölkə üçün çox önəmlidir



**Hümbət Hüseynov**

**Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyının sədri, M.Ə.Rəsulzadə Bələdiyyəsinin sədri**

Yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə həsr olunan müşavirə keçirilib. Həmin gün həmçinin dövlət başçısının Sərəncamı ilə "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026 2035-ci illər üçün Dövlət Proqramı" təsdiq edildi. Qeyd olunan Dövlət Proqramı Bakı və Abşeron yarımadasında su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanıb. Göründüyü kimi Proqram iki əsas mərhələdən ibarət olacaq və hər iki mərhələ də ölkənin su təchizatını daha dayanıqlı və ekoloji cəhətdən təhlükəsiz hala gətirməyi hədəfləyir. 2026 2030-cü illəri əhatə edən birinci mərhələdə mövcud su və kanalizasiya şəbəkələrinin yenilənməsi və təmiri üzərində cəmləşəcək. Bu müddət ərzində yağış sularının idarə olunması və tullantı sularının təkrar istifadəsi üçün müasir texnologiyalar tətbiq ediləcək. Eyni zamanda, "ağıllı su şəbəkələri" qurulacaq və su şəbəkələrindəki itkilərin aşkarlanması məqsədilə innovativ həllər təqdim ediləcəkdir.

2031 2035-ci illəri əhatə edən ikinci mərhələ isə su təchizatının fasiləsizliyini təmin etmək məqsədilə yeni su anbarları və nasos stansiyalarının inşasına yönələcək. Bu mərhələdə həmçinin su təchizatı və kanalizasiya şəbəkələrinin daha da genişləndirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulur. Proqramın uzunmüddətli məqsədi Bakı şəhərinin Baş Planı ilə uzlaşdırılaraq, müasir su təchizatı xidmətlərinin göstərilməsi və ölkənin su ehtiyatlarının səmərəli idarə olunmasına imkan yaradacaqdır.

Müşavirədə də qeyd olunduğu kimi bu gün qarşıda duran problemlərdən biri su itkiləri ilə bağlıdır. Əhalinin artması, sənaye və digər istehsal sahələrinin genişlənməsi təbii ki, suya olan tələbatı artırır. Bununla əlaqədar hazırda 40-45 faiz təşkil edən itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir və proqramın icrası nəticəsində bu, kəskin azalmalıdır.

Prezident İlham Əliyev müşavirədəki çıxışında paytaxt Bakı şəhərinin kanalizasiya məsələsinə xüsusi toxunub. Bildirilib ki, bu gün əhalinin 50 faizinə kanalizasiya xidməti göstərilir və Proqramın icrası nəticəsində bu, 95 faizə çatdırılmalıdır. Leysan yağışları yağan kimi şəhər nəqliyyatı iflic vəziyyətinə düşür, çox ciddi problemlər yaşanır. Dövlətimizin başçısı əlavə edib ki, "yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq".

"Dövlət başçısı onu da qeyd edib ki, Xəzər dənizinin çirklənməsinin qarşını almağın əsas amillərindən biri kimi dənizə buraxılan sular 100 faiz təmizlənməlidir. Eyni zamnda dövlət başçısı əlavə edib ki, Abşeron yarımadasının su təchizatı yaxşılaşdırmaq üçün ilk dəfə olaraq ölkəmizdə duzsuzlaşdırma zavodu inşa ediləcək".

Bir sözlə Dövlət Proqramının tədbirlər planı su təchizatı və tullantı sularının idarə olunması sistemlərinin inkişafı, su sektorunda təbii fəlakət risklərinin və ekoloji dayanıqlığın idarə edilməsinin təmini və su sektorunda innovasiya və rəqəmsallaşması kimi üç əsas prioriteti özündə əks etdirir.

Bu gün azad edilmiş ərazilərdə içməli su və suvarma layihələri icra edilir. Son beş ildə bir neçə önəmli layihə başa çatıb. Onlardan biri "Sərsəng" su anbarıdır. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Prezident İlham Əliyevin müşavirədə vurğuladığı kimi, vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. "Sərsəng" və "Suqovuşan" su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Bu gün isə "Suqovuşan" və "Sərsəng" su anbarları tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda "Köndələnçay", Ağdam rayonunda "Xaçınçay" su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş "Zabuxçay" su anbarı artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - "Həkəriçay" və "Bərgüşadçay"ın tikintisi də nəzərdə tutulur və artıq hazırlıq işləri gedir. Bütünü bunlar bir daha sübut edir ki, su mənbələri hər bir ölkə üçün çox önəmlidir.

Prezident İlham Əliyevin sərəncamları əsasında təsdiqlənən Bakı və Bakıətrafı qəsəbələrin, həmçinin regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmağı şərtləndirdi. Əminliklə deyə bilərik ki, bu Proqramında icrası uğurla başa çatacaqdır.

TƏHLİL

# Dünyada insanlıq əleyhinə cinayətlərin miqyası genişlənir

***Acı təəssüf hissi ilə qeyd edilməlidir ki, bu gün müharibələr, daxili vətəndaş qarşıdurması ilə çalxalanan dünyamızda insanlıq əleyhinə cinayətlərin miqyası artır. Hər gün orta statistikaya əsasən demək olar ki, dünyada 38 min, bəzi hallarda 55 minə yaxın insan baş verən müharibələrin, daxili qarşıdurmaların, total toqquşmaların qurbanı olur. Ən dəhşətlisi ondan ibarətdir ki, bəzi hallarda insanlar zorakı, vəhşi qruplar tərəfindən kütləvi şəkildə məhv edilirlər.***

Əhalinin məhvetmə insanlıq əleyhinə cinayət kimi Nürnberq Tribunalı Nizamnaməsinin 6-cı maddəsində, BNŞ-nın 10 nömrəli Qanununun 11-ci maddəsində, YBCT və RBCT nizamnamələrinin 5-ci və 3-cü maddələrində, Sülh və Bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər məcəlləsi layihəsinin 2-ci maddəsində və BCM Statutunun 7-ci maddəsində öz əksini tapmışdır. İnsanlıq əleyhinə cinayətlərin bir növü də işgəncədir. Hər cür ağrı və əzab işgəncə sayılmadığı üçün, hər cür işgəncə də insanlıq əleyhinə cinayət hesab olunmur. 1984-cü il dekabrın 10-da BMT-nin Baş Assambleyası İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə Konvensiya qəbul etdi. Konvensiya həmin cinayət barəsində universal yurisdiksiya müəyyənləşdirdi. Konvensiyanın 4-cü maddəsi iştirakçı dövlətlərin bütün işgəncə aktlarını cinayət kimi tövsif etmələrini və "onların xarakterinin çox ağır olduğunu nəzərə alaraq" cəza müəyyənləşdirmələrini tələb edir. Yəni insanlıq əleyhinə dair beynəlxalq hüquqda çoxsaylı qərarlar, qanunlar, konvensiyalar qəbul edilib.

Bu gün dünyanın müxtəlif bölgələrində baş verən qanlı müharibələr və münaqişələrdə bilərəkdən, şüurlu şəkildə dinc insanlar kütləvi şəkildə öldürülür. Müəyyən hallarda ölkələr dinc sakinlərin toplaşdıqları mərkəzləri bilərəkdən bombardman edirlər. Təəssüf ki, bu cür qeyri-insani əməllərə qarşı beynəlxalq aləm, nüfuzlu təşkilatlar, özlərini dünyada sülhün və təhlükəsizliyin qarantı kimi təqdim edən dövlətlər heç bir əməli addım atmırlar. Sadəcə bəyanat vermək, çağırışlarla çıxış etməklə işlərini yekunlaşdırırlar.

### Baş molla devrilə bilər

Dünyada Rusiya–Ukrayna və İsrail-HƏMAS - Qəzza müharibəsi, Pakistan-Hindistan, Pakistan-Əfqanıstan qarşıdurması, Efiopiyada Fano qüvvələri ilə federal hökumət arasında Amhara bölgəsində baş verən döyüşlər, Liviyada baş verən vətəndaş qarşıdurması, Konqo Demokratik Respublikasında hökumət qüvvələri ilə silahlı qruplar arasında gedən münaqişə, Somalidə yaşanan vətəndaş müharibəsi və nəhayət, farsmolla rejiminin daxilində insanlara qarşı yaşanan soyqırımı aktı dünyada ən amansız insanlıq əleyhinə cinayətlərdən hesab olunur. Xüsusilə də, Ukrayna-Rusiya müharibəsində ölənlərin sayı kitab dəftərə sığmır, yaralananların sayı isə dəhşət yaradır. Ukrayna ərazisinin az qala 70 faizi tamamilə dağılıb, insanlar çarəsidir, qida tapmaq, istiliklə təmin olunmaqda ciddi problemlərlə üzləşirlər. Fars-molla rejiminin nəzarət etdiyi ərazilərdə insanlıq əleyhinə törədilən cinayətlər daha amansızdır. Müasir dünyanın gözü qarşısında bu gün fars –molla rejimi özünün bütün növ hərbi qüvvələrindən və müxtəlif silahdan istifadə etməklə haqları və varlıqları uğrunda etiraz aksiyaları keçirən insanları öldürür, gecə evlərindən, küçələrdən oğurlayıb zindanlara atıb məhv edir. İnsan Haqları Müdafiəçiləri Qrupunun (HRANA) məlumatına görə, ötən müddətdə ərazilərin bütün şəhər və, qəsəbələrində etiraz aksiyası, tətil və küçə nümayişi keçirilib. Etirazlara universitetlərin tələbələri də qoşulub. Hesabata əsasən, hərbi qüvvələrin tətbiq etdiyi zorakılıq nəticəsində 20 minə yaxın dinc sakin öldürülüb. Məlumatlara görə, ölənlərin böyük əksəriyyəti gənclər, xüsusilə 10- 12 yaşlı uşaqlardır. Dünənə olan məlumatda bildirilir ki, rejim 33 mindən çox aksiya iştirakçısını evlərindən oğurlayaraq zindanlara atıb. Hazırkı etirazlar 1979-cu bəri rejim ərazisində ən böyük aksiyalardandır.



Milli Təhlükəsizlik Araşdırmaları İnstitutunun baş tədqiqatçısı Beni Sabtinin "The Times of İsrael"ə açıqlamasında rejim ərazilərində hərbi çevriliş ehtimalının qaçılmaz olduğunu bildirib. Onun sözlərinə görə, SEPAH rejimə sadiqliyini nümayiş etdirsə də, həm xarici təzyiqlər, həm də dərinləşən daxili böhran vəziyyəti daha da mürəkkəbləşdirir: "Çevriliş yalnız yuxarıdan ola bilər. Bəzi generallar – "SEPAH" və ya ordudan kimlərsə iqtidara nəzarəti ələ keçirsə, bu rejimi daha mötədil edə bilər. Ayətullah Xamenei devrilərsə bu rejim ərazilərdə sakitlyin yaranmasına müsbət təsir göstərən amilə çevrilə bilər".

Bu arada ABŞ prezidenti D.Tramp molla rejiminə xəbərdarlıq edib ki, əgər ayətullah rejimi insanlara qarşı ölümcül zorakılığa əl atsa, ABŞ "müdaxilə edəcək" və etirazçıların azadlığa çıxmasına kömək edəcək. D.Tramp bu yaxınlarda rejimdə ki vəziyyətlə bağlı "saatlıq yenilənmələr" aldığını və ABŞ ordusunun kiberhücumlar və ABŞ və ya İsrail tərəfindən birbaşa zərbələr də daxil olmaqla "bir neçə çox güclü variantı nəzərdən keçirdiyini" söyləyib. Donald Tramp onu da bildirib ki, etirazçılar edam olunarsa, çox ciddi tədbirlər görəcəyik: "Mən hələlik hər hansı bir edamdan xəbərsizəm. Amma əgər onları assalar, bunun qarşılığında bəzi şeylər görəcəklər. Belə bir hal baş verərsə, biz çox sərt tədbirlər görəcəyik".

Rejimin Ali Məhkəməsinin rəhbəri Qulam Hüseyn Mohseni-Eceinin isə tələsməyi və tezliklə etiraz aksiyaları zamanı saxlanılan şübhəlilərlə bağlı məhkəmə proseslərinin sürətləndirilməsini və onların edam edilməsinin vacibliyini söyləyib.

Araşdırmalarla sübuta yetirilir ki, farsmolla rejiminin cəza dəstələri saxladıqları etirazçıları xüsusi işgəncələrlə öldürürlər. Həbs olunan şəxslər döyülür, bəzi hallarda saxlanıldıqları yerlərdə kranlardan asılaraq həyatlarına son qoyurlar. Bu isə rejimin qədim dövrlərin cəza üsullarından əl çəkmədiklərini göstərir. Yəni fars-molla rejimi vəhşi barbarlardan heç də geri qalmadıqlarını və bəzi hallarda onları üstələdiklərini nümayiş etdirirlər.

Tarixi mənbələrə istinadən qeyd etmək olar ki, qədim dövrdə elə müharibələr olub ki, işğalçılar zəbt etdikləri şəhərlərin, kəndlərin hər bir canlısını qılıncdan keçiriblər. Yunan tarixçisi Fukidid eramızdan əvvəl V əsrdə Pelopennes müharibəsi zamanı afinalıların Melos adası sakinlərini son nəfərinədək məhv etdiyini yazıb. 947- ci il də bizim qədim yurdumuz olan Bərdə şəhərini işğal edən slablar 20 min insanı qətlə yetirmişlər. Yalnız Şirvanşahların müdaxiləsindən və slabların başçısının öldürlməsindən sonra Bərdədə normal həyatı bərpa etmək mümkün olmuşdur. Araşdırmalar təsdiq edir ki, 23 milyondan çox Amerika aborigenlərinin qətlə yetirilməsi bəşər tarixinin ən genişmiqyaslı soyqırımı hesab olunur. Avstraliya aborigenlərinin soyqırımı da həyata keçirilmişdir. Belə ki, 1788-ci ildən başlayaraq Avstraliyada Avropa müstəmləkəçiləri məskunlaşmağa başladılar. O zaman yerli aborigenlərin sayı təxminən 750 000 nəfər təşkil edirdi. Lakin 1911-ci ildə onların sayı cəmi 31 000 nəfər idi. Onların əksəriyyəti xəstəlikdən, deportasiyadan, qətliamdan və aclıqdan həlak oldu. 1226-cı il də Nişapuru işğal edən Cingiz xan şəhərin əhalisini tamamilə qılıncdan keçirib. Hətta Cingiz xan Nişapuru alan zaman əsgərlərinə əmr edir ki, şəhərdə insanlarla yanaşı uçan quşlar, yeriyən heyvanlar da məhv edilsin.

### İnsan qatilləri cəza üsullarını təkmilləşdirməyə üstünlük verirlər

İnsan qatilləri qədim dövrlərdən bu günümüzə qədər insan qatillərinin simaları dəyişsə də, əməlləri və üsulları olduğu kimi qalır. Birinci Dünya müharibəsində 20 milyon, İkinci Dünya müharibəsində isə 70 milyona yaxın insan öldürülmüşdür. Nasist Almaniyası tərəfindən 6 milyon yəhudinin məhv edilməsini (Xolokost) tarixin ən dəhşətli soyqırımlarından hesab olunur. Yaponiya ordusu tərəfindən törədilmiş beynəlxalq cinayətlər bəşəri vəhşiliklər hesab olunur. Müharibə bitdikdən sonra müttəfiqlər tərəfindən hərbi cinayətlərin törədilməsində ittiham olunan təxminən 5000 yapon hərbçisi üzərində məhkəmə prosesləri keçirilmiş və onlarn 4400 nəfəri məhkum edilmiş, 1000 nəfərinə isə ölüm cəzası kəsilmişdir. Almanlar tərəfindən Namibiyanm yerli xalqlarının məhv edilməsi nəticəsində 65 000 xerero (onların 80 faizi) və 10 000 nama (onlarm 50 faizi) həlak olmuşdur. 1985-ci ildə BMT Namibiya yerli xalqların məhv edilməsi cəhdini XX əsrin birinci soyqırımı aktı kimi qiymətləndirdi. 2004-cü ildə Almaniya hakimiyyəti Namibiyada soyqırımının törədilməsini etiraf etdi və rəsmi üzr istədi. 1975-1979 illərdə Pol Pot və İyenq Sari rejimi tərəfindən Kambocada 3 milyona qədər insanın məhv edilməsini, 1995 - ci ildə Srebrenisada Bosniya müsəlmanları Bosniya serbləri tərəfindən kütləvi qırğınmı, Darfurda yerli əhalinin soyqırımı (BMT hesablamalarına əsasən, həlak olanların sayı 180 mindən artıqdır) və digər cinayətlər bəşəriyyətin amansız soyqırımları hesab olunur. 1994-cü ildə Ruandadakı hutu hökuməti tutsiləri kütləvi qırğına məruz qoyub. Müxtəlif hesablamalara görə, iki ay ərzində təxminən 800.000-1.000.000 arası insan həlak olub, 250.000-500.000 qadın zorlanıb, ölənlərin 70%-ini tutsilər təşkil edib. Ruanda dövlət başçısı Pol Kaqame Fransa və Belçikanı soyqırımının siyasi hazırlıqlarını təşkil etməkdə günahlandırır.

***İLHAM ƏLİYEV***

---



**Mətanət Məmmədova**

# Bunun üçün uzağa getməyin!

***Endorfin axtarışında olan insanlar var, bunu hər kəs yaxşı bilir. Həm də bu adamlar əsasən kasıb təbəqənin deyil, varlı təbəqənin nümayəndələridir. Onlar endorfin üçün dünyanın ən yüksək zirvəsinə qalxmağa çalışır, dünyanın ən böyük meşəsində gəzməyi planlaşdırır, dənizin dibinə enib köpəkbalıqları ilə fotolar çəkdirib paylaşmağı qarşısına məqsəd qoyur, buzlaqlara üz tutur, göyün yeddinci qatında olmağa can atır, dünyanın ən bahalı gəlinliyini geyinməyə çalışır, ən bahalı qol saatına sahib olmaq istəyir və sair...***

Bütün bunlar üçün isə, necə deyərlər, elə dünyanın pulunu xərcləyir. Nədir, nədir ki, bir dəqiqə hər hansı yüksəklikdə, dənizin dibində köpəkbalıqları ilə birlikdə olum, buzlaqlarda fotolar çəkdirim, dünyanın ən bahalı paltarını mən geyinim və sair bunun kimi yüzlərlə iddiada olanlar var. Bəs burada məqsəd nədir? Təbii ki, endorfin tapmaq, özünü xoşbəxt hiss etmək...

Lakin həyat göstərir, hətta sübut edir ki, endorfin üçün əslində insan özünə bu qədər əziyyət verməyə də bilər. Hətta həyatını da təhlükə ilə üz-üzə qoymaya bilər. Məsələn, dənizin dibinə qəfəsdə enib köpəkbalığı görmək istəyən adama heç kim zəmanət verə bilməz ki, oradan sağ-salamat çıxacaq. Çünki köpəkbalıqları dəmir qəfəsləri belə bir anda dağıtmaq gücünə malikdirlər. Bu, bir şans məsələsi, alın yazısı ola bilər ki, sən köpəkbalığını görüb, onunla foto çəkdirib və endorfin alıb oradan salamat qurtara biləsən.

Və yaxud da hər hansı yüksəklikdən sağ-salamat aşağıya enməyin, hər hansı buzlaqdan yaşadığın yerə yenidən salamat qayıtmağın özü də müəmmalı məsələdir. Aldığın endorfinlə həyatına davam da edə bilərsən, həmin endorfinlə suyun altına, dünyanın ən yüksək zirvəsinə gömülə, buzlaqda donub buz adam da ola bilərsən.

Digər tərəfdən, dünyanın ən bahalı gəlinliyi, paltarı, qol saatı, düzdür, insana endorfin bəxş edə bilər, lakin onlara bu qədər pul xərcləməyə dəyərmi, bax bunu düşünmək üçün beyin və ürək olmalıdır.

Bütün bunları dərindən analiz edəndən sonra belə bir qənaətə gəlmək olur ki, fərqli maraqlar axtaran, bunun üçün uzaqlara gedən və həyatı üçün təhlükə yaradan adamlar üçün əslində çox yaxınlıqda, həm də təhlükəsiz şəraitdə yüksək endorfin mənbəyi var. Endorfin üçün yol qət etmək, küllü miqdarda pul xərcləməyə gərək yoxdur. Alimlər də təsdiqləyir ki, insan ən çox endorfini xeyirxahlıqla alır. Xeyirxah əməllərlə məşğul olmaq, insanlara yardım etmək, onları düşdüyü çətin vəziyyətdən xilas etmək, hər hansı xəstəni ölüm yatağından qurtarmaq, kimə isə yardım etmək xeyirxahlıq, həm də insanların axtarışında olduğu ən yüksək səviyyədə endorfindir.

Xeyirxah olmaq üçünsə böyük ürəyə sahib olmaq lazımdır. Elə bir ürəyə ki, o ürək başqalarına rəhm edə bilsin. O ürək ki, lazımsız, gərəksiz yerlərə xərclənən milyonlarla pulu vacib yerlərə xərcləməyi duya bilsin. Belə insanlar həm də çox uzun ömür sürürlər. Çünki gördükləri hər bir xeyirxah iş onlara davamlı şəkildə endorfin bəxş edir və bunun da sayəsində məmnunluq hissi yaranır, stresdən kənar olur, gördükləri xeyirxah işdən zövq alırlar. Təbii ki, bütün bunlar insanın ömrünü uzadır. Belə isə xeyirxahlıq etməyi bacaraq. Kimin əlində nə qədər imkan varsa, o imkan çərçivəsində xeyirxahlıq etsin. Xeyirxahlıq endorfin mənbəyidir. Bunun üçün əlbəttə uzağa, təhlükələrə getmək lazım deyil. Sadəcə xeyirxah ol, yetər. Kiminsə həyatını xilas et, kimisə sevindir, həm də endorfin əldə et. Bundan gözəl nə ola bilər ki?..

# Susuzluq: biz qədrini bilmirik, onlar dadını

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



***Son on ildə qlobal su, sanitariya və gigiyena (WASH) xidmətlərinə çıxışın genişləndirilməsində böyük addımlar atılıb. Dünyada milyardlarla insan içməli su ilə bağlı ümumi sağlamlıq vəziyyətini düzəldə bilib. Bu nailiyyətlərə baxmayaraq, əsasən aşağı gəlirli ölkələrdən olan insanlar hələ də təmiz suya çıxış imkanlarından məhrumdurlar ki, bu da onları xəstəliklərə qarşı həssas edir, habelə sosial inkişafa və inklüzivliyə mane olur.***

Ötən il Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun birgə dərc etdiyi (UNICEF) "Ev təsərrüfatında içməli su və sanitariya sahəsində irəliləyiş 2000-2024: bərabərsizliklərə xüsusi diqqət" adlı hesabatda bildirilirdi ki, əsrin əvvəlindən bəri nəzərəçarpacaq irəliləyişlər əldə olunsa da, 2030-cu il Davamlı İnkişaf Məqsədlərində (SDG) göstərilən məqsədlərə çatmaqda son illərdə inkişaf dayanıb. WASH xidmətlərinə universal çıxışı təmin etmək və açıq tualetə son qoymaq üçün WASH infrastrukturuna investisiyaların artırılması, beynəlxalq əməkdaşlığın gücləndirilməsi təmin edilməlidir.

ÜST-ün Ətraf Mühit, İqlim Dəyişikliyi və Səhiyyə üzrə direktoru Dr. Ruediger Krech bildirirdi ki, su, sanitariya və gigiyena imtiyazlar deyil, onlar əsas insan hüquqlarıdır. Davamlı İnkişaf Məqsədlərinə (SDG) çatmaq vədimizi yerinə yetirmək istəyiriksə bu hüquqları təmin etməliyik.

Hesabatda qeyd olunur ki, son illərdə əldə edilən irəliləyişlərin böyük bir hissəsi kənd yerlərində baş verib və son on ildə təhlükəsiz içməli suya çıxış 50%-dən 60%-ə, əsas gigiyena xidmətlərinin əhatə dairəsi isə 52%-dən 71%-dək yüksəlib. Lakin, bu ərazilərdə milyonlarla insan hələ də WASH xidmətlərinə kifayət qədər çıxış əldə edə bilmir, şəhər yerlərində isə irəliləyiş əhəmiyyətli dərəcədə ləngiyib.

Hazırda dünyada təxminən hər 4 nəfərdən 1-nin və ya 2,1 milyard insanın təmiz içməli suya çıxışı yoxdur, 106 milyon insanın təmizlənməmiş səth su mənbələrindən, məsələn, gölməçələrdən, göllərdən və çaylardan asılı olduğu təxmin edilir. Birləşmiş Millətlər Təşkilatının (BMT) rəqəmləri göstərir ki, WASH xidmətlərinə qeyri-kafi çıxış hər il təxminən 3,5 milyon insanın ölümünə səbəb olur.

Hesabatda həmçinin təxminən 3,4 milyard insanın təhlükəsiz idarə olunan sanitariya şəraitindən məhrum olduğu, 354 milyon insanın isə hələ də açıq şəkildə defekasiya etdiyi açıqlanıb. Bundan əlavə, təxminən 1,7 milyon insanın evlərində əsas gigiyena xidmətlərindən, 611 milyon insanın isə heç bir gigiyena qurğusundan istifadə etmək imkanı yoxdur. Uşaqlar WASH xidmətlərinin olmamasından ən çox zərər görənlər arasındadır. Xəstəlik, qidalanma, böyümənin ləngiməsi və inkişaf gecikmələri risklərinin artması ilə ən çox uşaqlar üzləşirlər. Təhlükəsiz axar suya çıxışı olmayan bir çox uşaq su ilə keçən xəstəliklər və ya yerli mənbələrdən su götürməyə sərf olunan vaxt səbəbindən məktəbdən uzaqlaşır. Uzunmüddətli təsirlərə təhsil hüququnun pozulması, məşğulluq imkanlarının azalması və sosial inkişafın çətinləşməsi daxildir.

Hesabata görə, bu risklər xüsusilə qadınlar və qızlar üçün müəyyən edilir, çünki ailənin su ehtiyatını təmin edən əsasən qadınlar olur. Xüsusən də Afrikada, Mərkəzi və Cənubi Asiyada su təminatına görə qadınlar məsuliyyət daşıyırlar. Bu bölgələrdə qadın və qızların su təmin etməyə gündə 30 dəqiqədən çox vaxt sərf etdikləri təxmin edilir və su ehtiyatı ilə məşğul olduğu üçün məktəbə getməmə hallarının daha yüksək olması bildirilir. Hesabada bildirilir: "Saxara səhrasında kənd əhalisinin yalnız 16 faizi suya çıxış əldə edir, Malavi kimi ölkələrdə ev təsərrüfatlarının 76 faizində qadınlar və qızlar su yığımına görə məsuliyyət daşıyırlar. Bu gündəlik iş onları fiziki gərginliyə, təhlükəsizlik risklərinə və vaxt itkisinə məruz qoyur. Bu nəticələr uzunmüddətli və sistematikdir."

Bundan əlavə, qadınlar və qızlar üçün WASH xidmətlərinin olmaması, analarda menstruasiya ilə əlaqəli infeksiyaların və yeni doğulmuş körpələr arasında su ilə keçən xəstəliklərin, sepsisin yayılma riskini artırır. BMT-nin rəqəmlərinə görə, 12 ölkədə kənd yerlərində hər 10 qadın və qızdan ən azı 1-nin son menstruasiya zamanı yuyunub paltarlarını dəyişə bilmək imkanı yoxdur. "Hər il beş yaşdan kiçik təxminən 400.000 uşaq qeyri-kafi su, sanitariya və gigiyena xidmətlərinin yetərsiz olması səbəbindən qaynaqlanan xəstəliklərdən ölür", - deyə UNICEF-in WASH üzrə direktoru Sesiliya Şarp bildirib.

***Lalə Mehralı***

# Avtomobil parkımızı niyə yeniləyə bilmirik?



**Son vaxtlar ölkəmizin avtomobil parkının yenilənməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Məsələn, yaşı 10 ildən çox olan minik avtomobillərinin Azərbaycan Respublikası ərazisinə gətirilməsi qadağan olunub. İdxal avtomobillərinə aksiz və gömrük rüsumları artırılıb. Bundan başqa həm ölkəyə idxal olunan, həm də ölkədə istifadə olunan avtomobillərə utilizasiya vergisi tətbiq edilib ki, avtomobilin yaşı nə qədər çoxaldıqca bu vergi məbləği də müvafiq olaraq artır. Daha bir qərar isə həddən çox köhnəlmiş avtomobillərin utilizasiyaya verildiyi zaman sahiblərinə müəyyən ödənişin edilməsi və bu məbləği yeni maşın alarkən istifadə edə biləcəyi ilə bağlıdır. Lakin hələlik bu tədbirlər avtoparkın yenilənməsi cəhətdən ciddi nəticələr verməyib.**

### Avtoparkımız çox köhnədir

Hazırda Azərbaycanda təxminən 1,7 milyon avtomobil var. Statistik göstəricilərə əsasən, hazırda respublikadakı avtomobillərin 80 faizindən çoxunun yaşı 10 ildən çoxdur. 60 faizinin yaşı isə 20 ildən çoxdur. Başqa sözlə, avtomobillərin 80 faizindən çoxunun yaşı 10-30 il, 20 faizinin isə yaşı 30 ildən çoxdur. Ölkəmizdə hər il istismar olunan çox sayda nəqliyyat vasitəsi köhnəlmə və yol-nəqliyyat hadisələri nəticəsində istifadəyə yararsız hala düşür. Yollarda xeyli sayda istismar müddətini başa vurmuş, texniki cəhətdən yararsız və təhlükəli maşınları görmək mümkündür.

### Xarici təcrübə necədir?

Bir çox ölkələr avtoutilizasiya proqramı həyata keçirərək öz avtomobil parklarını yeniləyib və nəticədə həm yol qəzalarının sayı, həm də ekoloji çirklənmə xeyli azalıb. Məsələn, Rusiyada demək olar ki, 15 ildir köhnə avtomobillərin utilizasiyası proqramı qüvvədədir. Dövlət bu proqramın həyata keçirilməsi üçün federal büdcədən hər il böyük məbləğdə vəsait ayrılır. Bu ölkədə ildə Rusiya istehsalı olan 120-130 mindən çox avtomobil satılır, dövlətin utilizasiya proqramının büdcəsi isə təxminən 1 milyard avro civarında təşkil edir.

Dövlət texniki vəziyyəti bərbad olan maşınları münasib qiymətə alır və vətəndaşa yeni avtomobil almaq üçün güzəştli və uzunmüddətli kredit verir. Yerli avtomobillər belə vətəndaşlara daha ucuz qiymətə təklif olunur. Beləliklə, Rusiya öz vətəndaşlarını yerli markalara aid avtomobilləri almağa həvəsləndirir. Nəticədə son 15 ildə Rusiyanın avtomobil parkının yarıdan çoxu yenilənib.

### Avtoutilizasiyaya maraq niyə azdır?

Göründüyü kimi, yerli avtomobil istehsalı olan ölkələrdə bu proses belə həyata keçirilir. Bəs yerli avtomobil istehsalı olmayan və ya az olan ölkələrdə bu proses necə ola bilər? Azərbaycanda yerli model avtomobil istehsalı olmasa da, Rusiya, ABŞ, İran və Çin avtomobil modellərinin bəzilərinin yığımı mövcuddur. Lakin bu yerli istehsal sayılmadığından onların qiyməti elə də ucuz deyil. Ən ucuzlarının qiymətləri 18-20 min manat arasındadır. Bu halda vətəndaş özünün hazırda bazar dəyəri 3-5 min manat olan avtomobilini qəpik-quruşa verib 10 qat qiymətə yeni maşın ala bilməyəcək, çünki onun köhnə maşınına 1500 manat ödənilir. Bu isə ən ucuz yeni maşının qiymətinin maksimum 10 faizini təşkil edir. Qalan fərqi hətta kreditə bölsələr belə vətəndaş uzun illər ayda 300-500 manatdan az olmayaraq vəsait ödəməlidir ki, bu da böyük əksəriyyət üçün mümkün deyil. Bu səbəbdən vətəndaşlarımız bu proqrama maraq göstərmirlər.

### Hər şeyin təzəsi, maşının köhnəsi?

Bu halda yeganə çıxış yolu, dövlətin həmin maşınları real bazar dəyərinə alması, ölkədə yığılan maşınları və xaricdən gətirilən maşınları onlara maya dəyərinə verməsidir. Həm də aşağı faizlə və uzunmüddətli kreditlə. Bu halda bu proqram daha effektli və ədalətli ola bilər. Üstəlik, həmin avtomobillərin detallarının güzəştli satışı təşkil olunmalıdır. Çünki yeni model maşınların ehtiyat hissələri çox bahadır, demək, məsələ təkcə maşını almaqla bitmir, onu saxlaya bilmək də var.

Daha bir məqamı nəzərə almaq lazımdır ki, bir sıra vətəndaşlarımız ucuz və köhnə avtomobillə yük daşıyır, xidmət göstərir, öz təsərrüfatı üçün istifadə edir və bununla dolanır. Salondan alınmış təzə maşınla o bunu edə bilməyəcək. Yeni maşının amortizasiya və təmir xərcləri dəfələrlə baha başa gəldiyindən bu maşınla həmin işi görməsi mümkün olmayacaq.

### Yaşlı yox, nasaz maşınlar təhlükəlidir

Mövzu ilə bağlı daha bir məsələ var ki, bir çox maşınların istehsal ili çox köhnə olsa da, texniki vəziyyətləri sazdır və ya demək olar ki, ideal vəziyyətdədir. Demək avtomobillərə yaşına görə yox, texniki vəziyyətinə görə yanaşılmalıdır. Əgər avtomobil texniki baxışdan keçirsə, demək, istifadəyə yararlıdır.

Elə maşınlar da var ki, istehsal ili nisbətən yenidir, amma ağır qəza keçirib və ya çox pis istifadə edildiyindən texniki vəziyyəti bərbad haldadır. 5-10 ilin maşını 20-30 ilin maşınından daha pis vəziyyətdə ola bilər. Yəni, avtomobilin yaşı və texniki vəziyyəti fərqli anlayışlardır, köhnə yox, nasaz maşınlar problemdir.

Yaşı 20 il və daha artıq olan elə maşınlar var ki, yaxşı vəziyyətdədir və bazar dəyəri 10 min manatdan aşağı deyil. Bu halda həmin maşın sahibi 1-2 min manata verməyəcək. Bundansa detallarını söküb satsa, dəfələrlə çox gəlir əldə edər.

Yerli yığım avtomobillərin qiyməti 20 min manatdan başlayır. Üstəlik, bizdə gömrük rüsumları çox yüksək olduğundan ölkəyə gətirilən yeni maşınlar da dəyərindən 2 dəfə baha olur. Deməli, insanlar təzə maşın ala bilmir və məcburən köhnələri birtəhər təmir edib istifadə edir.

### Çıxış yolu nədir?

Göründüyü kimi, bu proqramla bağlı hələ də aydın olmayan xeyli mürəkkəb məsələ var. Elə bir optimal yol tapılmalı və şərtlər elə ədalətli olmalıdır ki, köhnə avtomobil sahibləri bunda maraqlı olsun. Əgər hökumət maşın parkının yenilənməsini istəyirsə, idxal olunan 10 ilədək yaşı olan avtomobillərə gömrük və vergi rüsumlarını minimuma endirməlidir. Ya da yerli yığım avtomobilləri ucuz qiymətlə və uzunmüddətli kreditlə təklif etməlidir. Bundan başqa, utilizasiya ödənişini avtomobilin real dəyərinə uyğun verməlidir. O halda vətəndaş uyğun qiymətə normal avtomobil əldə edə biləcək və özünün köhnə maşınını utilizasiya verəcək. Bu hər iki tərəf üçün faydalı olacaqhəm dövlət üçün, həm cəmiyyət üçün. Bir sözlə, proses optimal və ədalətli şəkildə həyata keçirilsə, ölkənin avtomobil parkı 10 il ərzində əsaslı şəkildə təzələnə bilər. Nəticədə həm qəzaların və ölümlərin sayı azalar, həm də ekologiyamız daha az korlanar.

***Elçin Bayramlı***

ARAŞDIRMA

# Distant təhsil: sinif otağından ekrana uzanan tənhalıq



***Bəzi bölgə məktəblərində müəllim çatışmazlığı səbəbindən distant təhsilə keçilməsi xəbəri ürəkləri sızladır. Uşaqların gözündəki parlaq ümid, sinif otağının canlı müzakirəsi, müəllimin ilham verən səsi… hamısı ekran arxasına sıxışır. Təhsil yalnız bilik deyil, həm də ünsiyyət, sosiallaşma, yaradıcılıq və hər gün yeni suallarla dolu bir macəra deməkdir. Distant təhsil isə bu macəranı parçalayır, uşaqları yalnızlıqla, ekrandakı soyuq rəqəmlərlə qarşı-qarşıya qoyur. Müəllimsiz siniflərdə itən yalnız dərs saatları deyil, həm də uşaqların gələcəyə inamıdır. Hər bir övladın üzündə parlayan maraq, suallarının cavabını gözləyən qığılcımı ekran əks etdirə bilmir. Bu, təkcə təhsildə yox, həyatın ən qiymətli illərində uşaq üçün duyğu, motivasiya və ümid itkisinə çevrilir.***

Uşaqların gələcəyi gözümüzün önündə yoxa çıxır. Hər məktəb otağında ola biləcək bir müəllim, bir ilham verən söz, bir xoşbəxt an  bunlar əvəzsizdir. Onları ekran qarşısına sıxışdırmaq, sanki gələcəyi yarımçıq buraxmaqdır. Distant təhsil bir vasitə ola bilər, amma müəllimin əvəzini heç bir texnologiya verməyəcək.

Ekran arxasında dərs almaq uşaqlara yalnız bilik deyil, həm də müəllimlə qurulan bağlılıq və sinif yoldaşları ilə paylaşdıqları anları da əlindən alır. Hər bir uşaq üçün müəllim yalnız məlumat verən deyil, həm də ruhlandıran, maraq oyadan və hər bir sualına dəyər verən bir dəstəkdir. Bu dəstək olmadan, uşaqlar təhsili yalnız texniki bir proses kimi qəbul etməyə başlayır və onların öyrənməyə olan həvəsi zəifləyir.

Bölgə məktəblərindəki bu vəziyyət həm də sosial ədalətsizliyi dərinləşdirir. Uşaqlar fərqli imkanlara malik şəhər məktəbləri ilə müqayisədə daha çox əziyyət çəkir, hətta gələcəkdə seçim imkanları məhdudlaşır. Distant təhsil vasitəsilə öyrənilən biliklər əhəmiyyətlidir, amma uşaqların həyat enerjisi, ümidləri və yaradıcı düşüncəsi yalnız müəllim və sinif mühiti ilə inkişaf edə bilər. Bu boşluğu doldurmaq isə uzun illər çəkə bilər.

***Günay Hacıyeva***



## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!

*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Azərbaycanda onlayn pullara keçid iqtisadiyyat üçün nə dərəcədə realdır?



"Kağız əskinaslardan tədricən imtina edib onlayn və rəqəmsal ödəniş vasitələrinə keçid qlobal iqtisadi transformasiyanın təbii mərhələsidir. Skandinaviya ölkələri, Cənubi Koreya, Çin və bir sıra Avropa dövlətlərinin təcrübəsi göstərir ki, nağdsız iqtisadiyyat şəffaflığın artmasına, kölgə iqtisadiyyatının həcminin azalmasına və dövlətin fiskal nəzarət imkanlarının genişlənməsinə səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Asif İbrahimov deyib.

Onun sözlərinə görə, Azərbaycan reallığına tətbiq edildikdə isə bu prosesin uğuru bir neçə əsas şərtdən asılıdır: "İlk növbədə, ölkədə son illər rəqəmsal bankçılıq, mobil ödənişlər və elektron xidmətlər sahəsində ciddi irəliləyişlər müşahidə olunur. Onlayn bank tətbiqlərinin geniş yayılması, POS-terminalların artması və dövlət xidmətlərinin elektronlaşması nağdsız ödənişlər üçün mühüm infrastruktur bazası formalaşdırıb. Bu baxımdan, texniki və institusional zəmin mövcuddur. Kağız pulların tam və ya qismən dövriyyədən çıxarılması təkcə texnoloji məsələ deyil, həm də sosial-psixoloji məsələdir. Əhalinin müəyyən hissəsi, xüsusən regionlarda və yaşlı nəsil arasında nağd pula etibar daha yüksəkdir. Maliyyə savadlılığının səviyyəsi, rəqəmsal alətlərə inam və məlumat təhlükəsizliyi ilə bağlı narahatlıqlar bu keçidin sürətini məhdudlaşdıra bilər".

***Ziya Hikmətoğlu***

## ELAN

**"BAKI AĞIRLAŞDIRICILAR" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏHMDARLARININ NƏZƏRİNƏ**

**"Bakı Ağırlaşdırıcılar" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağı 02 mart 2026-cı il tarixində saat 11- 00-da keçiriləcək.**

**İclasın gündəliyində aşağıdakı məsələlər durur:**
**1. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatlarının təsdiq edilməsi.**
**2. Səhmdar cəmiyyətin 2025-ci il üçün mənfəət və zərərinin bölüşdürülməsi haqqında.**
**3. Digər məsələlər.**
**Yığıncağın keçiriləcəyi ünvan: Bakı şəhəri, Qaradağ rayonu, Salyan şossesi 22-ci km, 22A ( zavodun inzibati binasında)**
**Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.**
**Əlaqə telefonu 012 565 21 34**

**«Bakı Ağırlaşdırıcılar» ASC-nin İdarə heyəti**

# Pensiya yaşı dəyişdirilir?

*Dövlət Sosial Müdafiə Fondundan AÇIQLAMA*

Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üzrə fəaliyyətinin yekunlarına və 2026-cı il üçün prioritet istiqamətlərinə həsr olunmuş mətbuat konfransında Fondun İdarə Heyətinin sədri Zəka Mirzəyev çıxış etdikdən sonra jurnalistlərin suallarını cavablandırıb. SİA xəbər verir ki, mətbuat konfransında sosial təminat sistemi ilə bağlı ictimai maraq doğuran əsas məsələlərə aydınlıq gətirilib.

Pensiya kapitalının vaxtından əvvəl əldə olunması ilə bağlı sualı cavablandıran Zəka Mirzəyev bildirib ki, Azərbaycan qanunvericiliyinə əsasən pensiya kapitalı şəxsin fərdi hesabının sığorta hissəsində qeydə alınan vəsaitdir və bu vəsait məcburi dövlət sosial sığorta haqları hesabına formalaşır. Onun sözlərinə görə, beynəlxalq təcrübədə də məcburi dövlət sosial sığorta sistemi çərçivəsində toplanmış pensiya kapitalının pensiya yaşına çatmadan əvvəl əldə edilməsi praktikası mövcud deyil. Bu yanaşma pensiya sisteminin maliyyə dayanıqlığının qorunmasına xidmət edir.

DSMF sədri eyni zamanda pensiya yaşının azaldılması ilə bağlı mətbuatda yayılan məlumatlara da münasibət bildirib. Zəka Mirzəyev qeyd edib ki, bu mövzuda müxtəlif iddialar səsləndirilsə də, 2026-cı il üçün nəzərdə tutulan hüquqi islahatlar çərçivəsində pensiya yaşının dəyişdirilməsi məsələsi gündəmdə deyil. Onun sözlərinə görə, hazırkı pensiya yaşı parametrləri qüvvədə saxlanılır və sosial təminat sahəsində aparılan islahatlar daha çox sistemin səmərəliliyinin və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəlib.

***G. Hacıyeva***



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**